Dilqəm Əhməd:

# "Həmin xəritədə Qarabağ, Zəngəzur da Azərbaycanın tərkibindədir"




*Müsahibimiz Cümhuriyyət dövrü tədqiqatçısı, tarixçi Dilqəm Əhmədddir.*

**- Azərbaycanda bolşevik Rusiyasının işğalı başlayandan torpaqlarımızın zəbt edilməsi və Ermənistana verilməsi həyata keçirilib. Bu proses əsasən 1929-cu ilə qədər davam edib. Bu müddət və bundan sonra Məhəmməd Əmin Rəsulzadə və silahdaşları bu barədə heçmi yazmayıb və buna etirazlarını bildirməyiblər?**

- Təəssüf ki, 1920-ci ilin sonlarında Zəngəzurun qərb hissəsi bolşevik Rusiyası tərəfindən ermənilərə verildiyi zaman Azərbaycan mühacirləri hələ ki mütəşəkkil halda deyildilər. Bu qısa müddətdə Fətəli xan Xoyski, Həsən bəy Ağayev Tiflisdə öldürülmüş, Məhəmməd Əmin Rəsulzadə isə Moskvaya aparılmışdı. Həmin vaxt hələ ki ən yaxşı vəziyyətdə olan qrup Əlimərdan bəy Topçubaşının rəhbərliyində Parisdə olan nümayəndə heyətimiz idi. Bu dövrdə istər Fransa, Almaniya, istərsə də Türkiyədə yaşayan mühacir qruplar Cəmiyyəti-Əqvam dedikləri ozamankı BMT olan Millətlər Cəmiyyətinə bir sıra notalar veriblər. Bu notalar əsasən, Qafqazdakı üç respublikanın Rusiya tərəfindən işğalı və SSRİ-nin Avropa tərəfindən tanınması ilə bağlı idi. Amma Rəsulzadə 1923-cü ildə İstanbulda nəşr etdiyi "Azərbaycan Cümhuriyyəti" kitabında işğaldan sonra Azərbaycan ərazilərinin ermənilərə verilməsinə toxunub. O, bu işdə yerli kommunistləri də günahlandırıb belə yazırdı: "Ermənistanda dəxi bolşevik hökuməti təsis edər-etməz rus siyasəti Nəriman bəyin səxavətkar ağzilə iki gün əvvəl müdafiə eylədiyi Zəngəzur ilə Naxçıvan qəzasını mütəntən bir surətdə Ermənistana hədiyyə etdi". Onu da qeyd edim ki, azərbaycanlı siyasi xadimlər mühacirətdə qurulan Qafqaz Birliyi projelərində də erməni planlarının qarşısını alıblar. Məsələn, ermənilər 1934-cü ildə imzalanan Qafqaz Konfederasiyası Paktına 4 il sonra qoşuldular. Qoşulduqları zaman "milli azlıqlara tam inzibati muxtariyyət" tələbi irəli sürdülər, lakin Miryaqub Mirmehdiyev bunu qətiyyətlə rədd etdi. Çünki bu inzibati muxtariyyət Qafqaz azad olunduqdan sonra elə Sovet Azərbaycanı ərazisində qurulmuş Dağlıq Qarabağ Muxtar Vilayətinin qalması idi.

**- Türkiyədə bu mövzu gündəmə gətirilibmi və reaksiya necə olub?**

- Sırf Azərbaycan ərazilərinin verilməsi ilə bağlı müraciətə rast gəlməmişəm. Bu, onunla bağlıdır ki, mühacirlər Azərbaycanda qurulan bolşevik hökumətini tanımırdılar və 27 aprel 1920-ci ildə baş verən hadisəni haqlı olaraq işğal adlandırırdılar. Yəni ki, mühacirlərin öncəliyi bütövlükdə Azərbaycan ərazisinin işğalı idi. Bu baxımdan beynəlxalq qurumlara müraciətlər də ölkənin işğalı ilə bağlı idi. Bu işdə Miryaqub Mirmehdiyev, Abbas bəy Atamalıbəyov önəmli rol oynayıblar. Məsələn, 1929-cu ilin 8 sentyabrında Millətlər Cəmiyyəti Ali Məclisinin Rəyasətinə müraciət edilib, Rusiyanın Azərbaycanı işğalı, ölkədə davam edən partizan hərəkatlarından bəhs edilib. Parisdəki heyətimiz üzvlərdən Məhəmməd Məhərrəmovu Cenevrəyə göndərib. Məhəmməd bəy 53 millətin nümayəndəsinə bu notanı təqdim edib. Bu notalar, müraciətlər Rəsulzadənin çıxardığı jurnallarda mütəmadi şəkildə dərc edilib. Bir daha təkrar edirəm ki, mühacirlər bütün ölkənin işğalda olduğunu dünyaya çatdırıblar. Amma onu da nəzərə alaq ki, Qurtuluş Savaşı dövründə Türkiyənin tək müttəfiqi Sovet Rusiyası idi. Ona görə də Türkiyə mətbuatında Rusiya əleyhinə yazılara rast gəlmək o dövrdə imkansızdı. Çünki 1928-ci ildə hər iki ölkə arasında növbəti dostluq müqaviləsi imzalanmışdı. Bu müqavilədən sonra Türkiyədə yaşayan mühacirlər ölkədən çıxarılmışdı. Mühacirlər sadəcə öz qəzet və jurnallarında yaza bilirdilər.

**- Rəsulzadə də daxil olmaqla, cümhuriyyətçilər mühacirətdə olarkən dərgilər nəşr ediblər, xatirələrini yazıblar, vaxtaşırı olaraq Azərbaycanla bağlı hadisələrə toxunublar. Azərbaycan ərazilərinin zəbt edilməsi və Ermənistana verilməsi ilə bağlı hansı məqalələr var?**

- Mühacirətdə çıxan ilk dərgimiz "Yeni Kafkasya"dır və 1923-cü ilin sentyabrında işıq üzü görüb. Bu jurnalın ilk sayında "Cibali Qarabağın muxtariyyəti" başlıqlı xəbər dərc edilib. Belə ki, 1923-cü ilin iyul ayının 7-də ruslar Dağlıq Qarabağ Muxtar Vilayəti elan ediblər və bölgəni faktiki ermənilərə veriblər. Jurnalda Sovet qəzetlərinə istinadən beş maddədən ibarət qərarnamənin mətni verilib, bölgədə rəsmi dilin ermənicə olduğu yazılıb. Jurnalın 5-ci sayında Dağlıq Qarabağda erməni idarəçiliyinin qurulmasından sonra qarşıdurmaların olduğu, məşhur Sultan bəyin İrana mühacirət etməsi, Ağdamda millətpərvər Teymur bəyin öldürülməsi haqqında məlumat verilib. Jurnalın 1924-cü ilin 15 fevral tarixli sayında Dağlıq Qarabağdakı idarəçiliyə toxunulub. "Cibali Qarabağ məsələsi" adlı xəbərdə Azərbaycan Sovet Qurultayında Dağlıq Qarabağ ermənilərinin özlərini müstəqil şəkildə hərəkət etmələri barədə məlumat verilib. Jurnalın müxbirinin əldə etdiyi məlumata görə, Dağlıq Qarabağda bütün yazışma dili ermənicədir, Xankəndindən sonra Şuşanı da tamamilə ələ keçiriblər, müsəlmanları, yəni azərbaycanlıları Şuşadan və ətrafından köçürürlər. Hətta dağda yaşayan kürdlər də erməni təzyiqi nəticəsində yaşadıqları yerlərdən didərgin salınıblar. Bilirsiniz, həmin dövrdə Qarabağda baş verən hadisələrin İstanbulda mühacir mətbuatına çatması çox çətin idi. Xəbərləri yeni gələn mühacirlər və ya Qacar dövləti sərhədi üzərindən qurulan şəbəkə sayəsində əldə etmək olurdu. Amma buna baxmayaraq məlumatlar gəlirdi. Dağlıq Qarabağla bağlı "Yeni Kafkasya"nın 1924-cü ilin 15 avqustunda çıxan 22-ci sayında "Qarabağlı Sənan" imzası ilə "Cibali Qarabağ muxtariyyəti" adlı geniş məqalə işıq üzü görüb. Məqaləni yazan şəxs Azərbaycan Cümhuriyyəti Parlamentinin Zəngəzurdan olan deputatı Məhəmmədsadıq Axundzadədir. O, mühacirətdə Sənan, Sənan Azər, Mehmet Sadık Aran kimi imzalarla tanınıb. Məqaləsinin elə birinci cümləsində Məhəmmədsadıq bəy sərt şəkildə bildirib: "Bolşevik ruslar Azərbaycanı istila etdikdən sonra rusların qarsonu Nəriman Nərimanov Azərbaycan İnqilab Hökuməti rəisi ünvanı ilə bir dekret nəşr edərək Azərbaycanın ayrılmaz hissələri olan Qarabağ ilə Zəngəzuru Ermənistana peşkəş çəkdi". Axundzadə yazır ki, Qarabağ əhalisi təlaşa düşərək Bakıya heyət göndərdi. Həmin heyətdə özü də iştirak edib. Heyət Nərimanova Qarabağın əsas əhalisinin türklər olduğunu, tarixi, iqtisadi baxımdan da Azərbaycanın olduğunu faktlarla sübut edib. Maraqlıdır ki, məqaləyə görə Nərimanov heyətin dediklərinin doğruluğunu təsdiq edib, amma "belə etmək məcburiyyətindəyik" deyib. Yenə Axundzadənin yazdığına görə, muxtariyyətin elanından sonra bolşeviklər Hadrutdakı rus ordusunun qərargahından ermənilərə külli miqdarda silah verdilər və erməni milli dəstələrini yaratdılar. Buna qarşı çıxan azərbaycanlıları isə ÇeKa həbsxanalara doldurdular. Axundzadə bölgə əhalisindən olduğu üçün baş verənləri dəqiq analiz edib. Məsələn, o yazır ki, Azərbaycanı bölmək üçün ruslar bir tərəfdən Dağlıq Qarabağda erməni muxtariyyəti, digər tərəfdən Kürdüstan yaratdılar, Naxçıvanı faktiki ayrıca ölkə kimi qurdular. Təbii ki, bunlar arasında ən təhlükəlisi Qarabağ idi. Ona görə də Axundzadə "Azərbaycanın qəlbgahında bir "Ermənistan" qurdular" ifadəsini işlədib. Axundzadə erməni idarəçiliyinə verilən bölgələri bir-bir sadaladıqdan sonra Qarabağın ciyərgahı olan Əsgəran keçidinin də düşmənlərimizin kontrolunda olduğunu fəryadla qeyd edib. 70-80 minlik erməni əhalinin 600 minlik azərbaycanlılar üzərində hökmran olmasını yazan Axundzadə köçəbə həyatı sürən xalqın ermənilərə vergi vermək məcburiyyətində olduğunu da bildirib. Yaylağa gedən əhali 1923-cü ildə ermənilərə 11 min qoyun vergi verib.






## Azerbaycan hesabına büyük Ermenistan

**«Lenin Milli siyasetinin» bir eseri tecellisi olarak Ermenistana ilhak edilen Zengezurdan sonra sıra şimdi Karabağla Genceye gelmiştir**

**Azerbaycan hesabına büyük Ermenistan yaratmak için ermeni komünistleri nasıl çalışıyorlar?**

İki Ermenistan, biri Suriye'de diğeri Erivan'da... Ortadaki erazi üzerinde de Kürt hareketi. Sonra Erivanla Kilikya, Kürdüstanı kolaylıkla yutabilir...

İşte Lozan'dan sonra Daşnak siyaseti bundan ibarettir. Kafkasya'da bu projenin Erivan'a ait kısmını tatbik için Daşnakların mühim bir kısmı bolşeviklere iltihak ettiler ve bolşevik bayrağı altında Azerbaycan hesabına büyük Ermenistan yaratmağa koyuldular. Sovyet hükûmeti Âzeri komünistlerinin tam bir cehalet, aciz ve körlüklerinden bilistifade Azerbaycanın Zengezur vilâyetini, Gökçe etrafile Kazak kazasından bir çok eraziyi Ermenilere vermiştir. Bu yetmiyormuş gibi Azerbaycanın mukaddes bir parçasını teşkil eden Karabağ'da muhtar bir Ermenistan cumhuriyeti teşkil eyledi. Sovyet hükûmeti Kafkasya haricinde olan Ermenilerin Azerbaycan'dan ayrılan bu yerlere toplanmasına var kuvvetile yardım etti ve halâda etmektedir. İran'dan, İrak'tan Avrupa'dan ve Rusya'dan ermeniler bu türk yurduna dolmağa başladılar.

Bu erazide ne gibi hayat vardır? Bu hususta Tiflis'te intişar eden «Zarya Vostoka» gazetesini (N 140) okuyalım. Mezkûr gazeteye göre « Muhtar dağlık Karabağ eyaletinde » Daşnaklar hâkim vaz'iyetinde olup ermeni komünistleri tarafından himaye edilmişlerdir. Ermeni komünistleri, hatta Karabağ'da ermenice intişar etmekte olan « Horurdain Karabah » gazetesi Daşnaklarla mücadeleden imtina etmiş, onlara karşı sefer açmamış, hatta daşnakları « marksist mektebine mensup diye gösteriyor, daşnakların liderlerini ihtilâlci marksizmin müessisleri,diye medholunuyor. »

Gazete diyor ki:

— Ermeni komünistlerinin daşnak ve milliyetçilikle mücadele eden kısmı, mücadeleyi kabul etmekle beraber daşnakların mevcut olmadığını iddia ediyorlar. Demek onlarca ermenilerde milliyetçilik ve daşnakçilik yoktur. Her şey yolundadır. Yalnız Türklerde fenadır. Türklerin arasında Müsavatçı var, ermenilerde daşnak yoktur.

Ermeni komünist fırkası kâtiplerinden biri bir suale böyle cevap vermiştir:

— Ne? Bizde daşnak ve milyetçilik rahumu? Bizde işler yolundadır. Bilmem, belki türkler

Mabaadı 3 üncü sahifede




**(ardı gələn sayımızda)**